İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________

Oxu tarixi: ______________________

# Endorfin

(şeirlər)

RƏŞAD NAĞI MUSTAFA

Buraxılışa məsul: Nurman TARİQ

Redaktor: Elvin PAŞA

Korrektor: Turac ELDARQIZI

Yekun oxunuş: Toğrul MUSAYEV

Bədii və texniki tərtibat: İsmayıl SÜLEYMANLI

Üz qabığının dizaynı: Azər ƏSGƏRZADƏ

**Rəşad Nağı Mustafa**
**ENDORFİN**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2017, 104 səh.

**© Rəşad Nağı Mustafa / 2017**
**© Avtoqraf klub / 2017**
**© Parlaq İmzalar MMC / 2017**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 36
Avtoqraf klub | 3

ISBN 978-9952-5087-7-2

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0552595972 / 0552597259

# Mündəricat


Qadından məzaradək ____ 9
Kədərin ev yiyəsi ____ 11
Venera ____ 12
Heç ____ 13
Anama oxşa ____ 14
Leykoz ____ 15
Ana – yaşamaq üçün yalvarışdır ____ 16
Unudulmuş arzu ____ 18
Aprel şəhidlərinə ithaf ____ 19
And – şəhid canı ____ 20
Hirs ____ 21
Sevginin "üç"ündə ____ 22
Hazırlanmışlardanam ____ 24
Dul dünya ____ 25
Hörümçək ____ 26
Adsız gediş ____ 27
Qoca baş ____ 30
Azca ____ 31
Yalançı laylalar ____ 32
Qızılgül ____ 33
Nişan ____ 34
Poçtalyon ____ 35
Siqareti "böyüklər" çəkmir ____ 36
"Köhnə Bakı"da ____ 38

Xəstəxana dəhlizi ____ 39
Hüseynin anasına ithaf ____ 44
Doğum sancısı ____ 45
Bəhanələr ____ 47
3-ün ____ 48
Şəkildəki sprey ____ 49
Miokard ____ 50
Ağla ____ 51
Ləman ____ 52
Xoşbəxtliyin ahəng qanunu ____ 53
Kimdir gələn? ____ 55
Ölüm ____ 57
Sükut ____ 58
Ona ____ 59
Həb fəsillər ____ 60
Ən ağıllı dəli ____ 61
Lalə ____ 64
Ayselin qonşusu ____ 65
Kirpik ____ 67
Göz damcısı ____ 68
Skalpel ____ 69
Aysel maktub ____ 71
Görüş yeri ____ 73
Əllər ____ 74
Kirayə sevgi ____ 75
Elvin Paşaya məktub ____ 77
Qırmızı ____ 78
...yuxusu ____ 80
Qafiyəsiz elegiya ____ 81
Şair elegiyası ____ 83
Uzaqlara ithaf ____ 85
*Rəylər* ____ 87

*Ən pis günlərimdə*
*yanımda olan dostum*
*Təbriz Quliyevə ithaf edirəm*

***Qadından məzaradək***

Bir qadın ola,
əziz bir qadın.
Hər bir arzusundan diləyinəcən,
bütün hislərindən ürəyinəcən,
gözünün yaşınacan təmiz bir qadın.

Bir ömür ola,
otuz il ömür.
Hərəsin bir kəsə qurban edəsən
Paylayıb illəri çıxıb gedəsən
"Özünçün yaşamaq" – bu deyil ömür.

Bir dustaq ola,
ürəkdə dustaq.
Qayıdıb baxasan ötən ömrə
Azadlıq axtarıb, itən ömrə
Bətndə dustaqsan, bələkdə dustaq.

Bir kirpik ola,
bu düşən kirpik
gözdən düşənləri yadına sala.
Gedə yanağında ilişə qala,
gözünün yaşıyla görüşən kirpik.

Bir mərmər ola,
qapqara mərmər.
İçində əbədi gözün yumula,
qulağın kar ola dilin tutula,
səni səadətə apara mərmər.

***Kədərin ev yiyəsi***

Darıxanda adama
şəkillər də bəs etmir.
Lala dönür xəyallar,
xatirələr səs etmir.

Bir xəyanət oxuyla
zəhərlənər həyatın.
Düz ürəyini sancar
əqrəbləri saatın.

Sonra tutar ürəyin
ağrısı kürəyindən.
Bir daş intihar edər,
asılar ürəyindən.

Darıxan adamların
bir ümidi sağ olur,
Kədəri ev yiyəsi,
sevinci qonaq olur.

***Venera***

Hələ belə olmamışdı...
Bayramda küsülülər barışar deyə
ümid etmişdim yoxluğunla barışacağıma
Barışa bilmədik...
Əslində, anlamışdım ki,
ayrı planetlərin insanlarıyıq.

Mən sevgi planetində doğulmuşdum –
Venerada.
Uşaq evində böyümüşdüm –
Yer kürəsində...
Elə buna görə də yumşaq ürəyimlə,
daş kimi bərk sevmişdim.
Mən səni zöhrəvi sevmişdim.
Sən hardan biləsən "zöhrəvi" sevgi nədir?!

Səni itirmək,
Allaha səninlə xəyanət etməyin cəzası idi.
Mən pal-paltarımı yığıb Veneraya qayıdacam.
Xatirələrim?
Onları apara bilmərəm.
Bu gün sərçələrə qonaqlıq verdim
xatirələrimin qırıntıları ilə.

***Heç***

Biz necə bir olaq? Bir doğulmadıq.
Allah ayrı-ayrı yaratdı bizi,
Yatıb yuxuda da xoşbəxt olmadıq.
Ayrılıq səsinə oyatdı bizi.

Hansı bəxtəvərin günün oğurlayım?
Bircə xoş günümüz yox xatirətək.
Yadıma nə salım? Nəyə ağlayım?
Biz axı nə yatdıq nə yuxu görək.

Zamanla sevmədik, bir anda sevdik,
Ağladan olmadı bizi biz qədər.
Heç nə qazanmadıq, nələr itirdik,
Bəxtimiz olmadı sevgimiz qədər.

***Anama oxşa***

Ayrı adamlarıq biz,
Hər şeyimiz ayrıdı.
Bizi düşüncələrimiz,
baxışımız ayırdı.

Sevgi məni yoxladı,
Unutdurdu Allahı.
Ruhumu ac saxladı,
Ürəyimi doyurdu.

Onda əməl kitabı
suallarla doluydu.
Fələk təsbeh hesabı,
Ümidimi sayırdı.

Ağla məni kirimə,
Bir az anama oxşa.
Anam mənim dirimə
mərsiyə oxuyurdu.

***Leykoz***

Yaramın üstü qopur,
Sağalıram, deyəsən.
Mən, yıxan adamı da,
yıxıldığım yeri də,
Unutmuram biləsən.

Kölgən gəzir, dolaşır
yatanda dörd yanımı.
Nə yalan deyim sənə,
Çətin olur unutmaq
ən unutqan xanımı.

Qırmızı donunu gey
və götür ağ çantanı.
On üçüncü palata,
Gəl bax gör necə yeyir
ağ qan qırmızı qanı.